DOI:10.30546/gdu.3.2024

**UOT:94(479.24).**

# HEYDƏR ƏLİYEV: MULTİKULTRALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI

***Şəmilova Dilşad İsrəfil qızı***
***Bakı Dövlət Universitetinin Qazax filialı***
***dilshadshamilova7@gmail.com***

**Xülasə:***Ulu Öndər Azərbaycanın daim tarix boyu yaşadığı sivilizasiyanı onun xeyrinə həll etdi.40-dan çox azsaylı etnik qrupların yaşadığı bu tarixi məkanı onların rahat yaşam yerinə çevirdi.*

**Açar sözlər:** Multikulturalizm, tolernatlıq, etnik qruplar
**Ключевые слова:** Мултикултурализь, толерант, етнический группа
**Keywords:** Multiculturalism, tolerant,e tnic group

Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir... Bu gün Azərbaycanartıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir.İlham Əliyev Azərbaycan xalqının XX-XXI əsrin social, mədəni inkişaf qanunauyğunluqları kontekstində multikultural ənənələrinin mənəvi mədəniyyətin ayrılmazhissəsi kimi dərki və yenidən dəyərləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. İstər daxili ,istərsə də beynəlxalq iqtisadi və mədəni əlaqələr durmadan günü-gündən genişlənir. Dünya yenisivilizasiyanın astanasındadır. Bəşər tarixinin bu innovativ mərhələyə transformasiyasının prioriteti, strateji hədəfi ilk növbədə fərqli mədəniyyətlərin, dünyagörüşlərinin bütövləşməsi sayəsində vahid sosial mədəni məkanı araya-ərsəyə gətirməkdir. Dəyərlər mübadiləsinin bir proses kimi intensivləşdirilməsinin şahidi oluruq. Dünya yeni sivilizasiyanın astanasındadır.

Bu hədəfə nail olub-olmamaq isə ümumbəşəri dəyərləri aşkarlamaq, onlarla müxtəlifdinlərin,mədəniyyətlərin daşıyıcılarının ümumi yanaşmasını təmin etməkdən, bir çox mürəkkəb humanitar, sosial, mədəni-əxlaqi, iqtisadi problemlərin həlli məqsədilə birgə fəaliyyətdən əhəmiyyətli dərəcədə asılıdır. Elə davamlı inkişaf da tələb edir ki, insanlar, böyük anlamda, xalqlar könüllü və şüurlu şəkildə birgə fəaliyyət göstərib bir hədəfə vursunlar.Bu isə yalnız mədəniyyətlərarası əlaqələrin təhlili, problemlərin çözümü üçün birgə sabit mexanizmlərin işlənməsi, bir sözlə, insan inkişafının multikultral strategiyasının uğurlu icrası sayəsində gerçəkliyə çevrilə bilər.

Əsrlər boyu iki dünyanın – Avropa ilə Asiyanın təkcə coğrafi deyil, həm də mədəni baxımdan “kəsişmə nöqtəsində” yerləşən Azərbaycan da hazırda bu gerçəkliklərin dərkinə əsaslanan siyasi kurs yürüdür. Hər zaman mədəniyyətlərarası dialoqda önəmli rol oynayan ölkəmizin bu sahədə uğurları indi daha diqqət çəkəndir. Əlbəttə, gələcəyi bütün dəqiqliyi ilə proqnozlaşdırmaq çox mürəkkəb məsələdir. Amma artıq bir şey şübhəsizdir ki, Azərbaycan reallıqları kontekstində mədəniyyətlərarası dialoqun çox böyük perspektivi var və ölkəmiz bu prosesin əvəzsiz iştirakçısı olmaq iqtidarındadır. Bunun üçün Azərbaycan dövləti bütün imkanlara malikdir: maddi və insane resursları, milli ruh və ənənələr.Azərbaycana yalnız bu imkanlardan faydalanaraq qloballaşma proseslərinin inkişafına öz töhfələrini vermək qalır ki, məhz bu kontekstdə Azərbaycan rəhbərliyi daim davamlı işlər görmüşdü. Azərbaycan müstəqillik qazandıqdan sonra Heydər Əliyevin geniş fəaliyyəti nəticəsində respublikada din və etiqad azadlığı tam təmin edilmiş, milli mənəvi dəyərlərə münasibət kökündən dəyişmiş, dini ayin və mərasimləri yerinə yetirmək üçün bütün dinlərə mənsub olan insanlara bərabər şərait yaradılmışdır. Ümummilli lider milli-dini dəyərlərimizin qorunmasında, İslama ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində öz əməli fəaliyyətilə böyük rol oynamışdır. Multikulturalizm və tolerantlıq siyasətini ölkənin

DOI:10.30546/gdu.3.2024

demokratik inkişafının tərkib hissəsi hesab edən Heydər Əliyev Azərbaycan ərazisində yaşayan milli azlıqların etnik-mədəni və dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan insan hüquq və azadlıqları kontekstində görürdü.

Azərbaycanda müxtəlif dinlərin birliyinin nümunəvi xarakterə malik olduğunu dünyaya göstərdik.Xalqımızın dini dözümlülüyünü göstərən mühüm faktlardan biridir. Heydər Əliyev 1998-ci ilin may ayında Prezident Sarayında ölkənin din xadimləri ilə görüşündə söylədiyi nitq zamanı Azərbaycanda tarixən mövcud olan müxtəlif dinlərin birliyini vurğulamış və ölkəmizdəki dini tolerantlığı aşağıdakı kimi şərh etmişdir: "Azərbaycanda müxtəlif dinlərin bu cür birliyinin olması müstəsna dərəcədə nümunəvi xarakter daşıyır. Bu, əslində, Azərbaycanın mənəvi zənginliyidir.Mənəvi dəyərlər və azərbaycançılıq - bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çox mədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı.

Azərbaycanda qədim ənənələrə malik olan multikulturalizm və tolerantlıq mədəniyyəti Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir. Ulu öndərin siyasi kursunun davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev bu siyasəti uğurla davam etdirir, multikulturalizmin Azərbaycan modelinin dünyaya nümunə kimi təqdim edilməsi istiqamətində mütərəqqi addımlar atılır.

"...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Ulu öndər Heydər Əliyev Azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Adil Kərimli seminarın birində bu mövzuya toxunub. Mövzunun aktuallığının artmasını göstərmişdi. Cəmiyyətdə geniş vüsət alan, geniş təbliğ edilən və dövlət siyasətinin prioritet istiqamətlərinin biri kimi müəyyən edilən aktual və əhəmiyyəli bir mövzuya olan multikulturalizm həmişə xüsusi dövlət siyasəti olub.

2015-ci il ərzində Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən, onun müxtəlif sahələrdəki zəngin xidmətlərini aşkara çıxaran mövzular araşdırılıb və dəyərli alimlərimiz, ictimai-siyasi xadimlərimiz tərəfindən təqdim edilib. Mərkəzdə təşkil olunan seminarlarda məhz tolerantlıq və multikulturalizmin Azərbaycan modeli haqqında geniş məruzələr araşdırılıb. Dərin kökləri olan bu siyasətin Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətində xüsusi yer tutduğu daim vurğulanır .Onu da vurğulayaq ki, Heydər Əliyev elə bir zamanda multikulturalizm və tolernatlıq ideologiyasının inkişafına xüsusi diqqət yetirdi ki, nəhəng Sovet İttifaqı bu siyasət adı altında imperializm siyasətini yeridirdi. Multikultural siyasət adı altında vahid sovet vətəndaşlığı ideologiyası ilə xalqların mədəni, sosial tarix və keçmişlərini silirdi. Heydər Əliyev isə böyük imperiyanın tərkibində olan azsaylı, kiçik xalqların mədəniyyətlərinin qorunması üçün məhz bu siyasəti inkişaf etdirmişdi.

***Ədəbiyyat***

1. Azərbaycan multikulturalizmi.B.2017
2. Azərbaycan tarixi.VII cild.b.2007
3. Multikulturalizmə Giriş.B,2019

DOI:10.30546/gdu.3.2024

**ГЕЙДАР АЛИЕВ: ИДЕОЛОГИЯ И МУЛЬТИКУЛЬТРАЛИЗМА И ТОЛЕРАНТНОСТИ**

***Шамилова Дильшад Исрафиловна***

***Резюме***

Великий Вождь решил в свою пользу цивилизацию, в которой всегда жил Азербайджан на протяжении всей истории, превратив это историческое место, где проживает более 40 национальных меньшинств, в комфортное место для их проживания.

**HAYDAR ALIYEV: THE IDEOLOGY OF MULTIKULTRLIZM AND TOLERANTNION**

***Shamilova Dilshad Israfilova***

***Summary***

The Great Leader solved the civilization that Azerbaijan has always lived in throughout history in its favor. He turned this historical place inhabited by more than 40 minority ethnic groups into a comfortable place for them to live.

***Rəyçi: dosent Arif Veyisov***
***İctimai və təbiət fənləri kafedrasının 21 may 2024-cü il tarixli iclasın 17 saylı protokolu***
***Daxil olma tarixi 16 sentyabr 2024-cü il***